http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 05 (1623) 15 mart 2016 - cı il Qiymәti 50 qəpik

# Bakıda "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Forum keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib

**Martın 10-da Azərbaycanın paytaxtında "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumunun rəsmi açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları Forumun rəsmi açılışında iştirak ediblər.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilir. Bundan başqa, enerji və qlobal idarəçiliyin perspektivləri ilə bağlı məsələlər də Forumun gündəliyinə daxildir.

Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı Forumda 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edib.

***

Dövlətimizin başçısı rəsmi açılışda nitq söyləyib.





BU SAYIMIZDA



İmtahan sessiyasının yekunları müzakirə olundu 2, 4

Macarıstanın Semmelveis Universiteti ilə anlaşma memorandumu imzalanıb 4




Uroloqlar Assosiasiyasının növbəti tədbiri keçirildi 3

ÜMUMDÜNYA BÖYRƏK GÜNÜ QEYD OLUNDU 5



İ.İSMAYILOV: "ƏMƏKDAŞLARIMIZ YÜKSƏK İXTİSASLI MÜTƏXƏSSİSLƏR KİMİ KAFEDRANIN KLİNİK BAZALARINDA MÜALİCƏ İŞLƏRİNƏ RƏHBƏRLİK EDİR" 6



Tədris Cərrahiyyə klinikasında «ilkin yardım haqqında maarifləndirmə» tədbiri keçirilib 7

**Fevralın 29-da Böyük Elmi Şuranın növbəti iclası keçirilmişdir. İclasa sədrlik edən ATU-nun rektor əvəzi, tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev gündəliyə keçməzdən öncə universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulovanı 50, travmatologiya və ortopedik terapiya kafedrasının müdiri, professor Əhməd Əhmədzadəni isə 70 illik yubileyi münasibətilə təbrik etdi, onlara gələcək işlərində uğurlar arzuladı.**

**Sonra ATU-nun tədris hissə müdiri, dosent Nəsimi Qasımovun "2015-2016-cı tədris ilinin payız semestrinin imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" barədə hesabatı dinlənildi.**



ması istiqamətində də xeyli iş görülmüşdür. Universitetin metodik və innovasiya şöbəsi tərəfindən test tərtibinə cəlb olunan professor-müəllim heyəti ilə seminarlar keçirilmiş, tərtib olunmuş testlərin texniki,

imtahan sessiyasına hazırlığın vəziyyəti dəfələrlə müzakirə edilmişdir".

İmtahan sessiyasının nəticələrini diqqətə çatdıran tədris hissə müdiri bildirdi ki, təsdiq edilmiş imtahan şəbəkəsinə müvafiq olaraq ayrı-ayrı fakültə və kurslarda 29 dekabr 2015-ci il - 01 fevral 2016-cı ildə aparılmışdır:

"Sessiyanın ilkin nəticələrinə görə klassik qaydada imtahan verən tibb məktəbinin tələbələri 130 halda imtahanda iştirak etmiş, 9 - 6,9% halda imtahana gəlməmişdir.

Klassik qaydada aparılan imtahanın nəticələrinə görə 38 (29,2%) halda «əla», 62 (47,6%) - yaxşı, 21 (16,1%) - halda «kafi» qeyd edilmişdir.

Kredit sistemi ilə təhsil alan tələbələr 44019 (keçən il 41262) halda imtahanda iştirak etmişdir.

Sessiya müddətində imtahan verməli olan 6033 tələbədən 5965 nəfəri imtahanda iştirak etmişdir. 68 nəfər bu və ya digər səbəbdən payız semestrinin imtahan



rın öyrədilməsi ilə bağlı müzakirələr aparılmışdır. Bu məsələlər fakültə şuralarında, tələbələrlə istehsalat müşavirələri zamanı görüşlərdə də geniş müzakirə olunmuşdur.

# İmtahan sessiyasının yekunları müzakirə olundu

Ölkə başçısı cənab İlham Əliyevin Sərəncamı ilə «Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası»na müvafiq Azərbaycan Tibb Universitetinin strateji inkişaf planının təsdiq edildiyini diqqətə çatdıran məruzəçi bildirdi ki, həmin plana əsasən universitet kollektivi 2015-2020-ci illəri əhatə edən tədbirlərin həyata keçirilməsi üçün bir sıra strateji məsələləri həll etməlidir.

metodiki ekspertizası aparılmış, fənlər üzrə ekspertlər müəyyən edilmiş və onların iştirakı ilə suallar sonuncu dəfə yoxlanılaraq test bankına yerləşdirilmişdir.

Cari tədris ilinin əvvəlində universitet rəhbərliyinin apardığı gərgin iş sayəsində keçən ilki maliyyə sıxıntıları müəyyən qədər aradan qalxmışdır. Dövlət sifarişi ilə təhsil alan tələbə, magistr və rezidentlərə verilən vəsait müəyyən qədər artırılmışdır. Bunun nəticəsidir ki, 2015-ci ildə əmək

sessiyasında iştirak etməmişdir ki, bu da tələbələrin 1,1%-dən çoxunu təşkil edir.

İmtahan sessiyasını 5636 nəfər tələbə müvəffəqiyyətlə başa vurmuşdur. Onlardan 1015 nəfər (17%) sessiyanı «əla» qiymətlərlə, 2549 nəfər (42,7%) «əla» və «yaxşı» qiymətlərlə, 2073 nəfər (34,7%) qarışıq qiymətlərlə bitiriblər. Sessiyanın nəticələrinə görə 329 nəfər (5,5%) tələbənin akademik borcu (F) qalıb. Onlar-

Lakin bu məsələlərin ətraflı müzakirəsinə baxmayaraq yenə də bəzi kafedralarda testlərin hazırlanmasında, imtahan zamanı nəzərə çarpacaq dərəcədə qüsurların olması aşkarlanıb.

O, qeyd etdi ki, universitet üzrə 57 tələbə appelyasiyaya ərizə ilə müraciət etmişdir. Onlardan 40 şikayəti əsaslı, qalanları isə əsassız olmuşdur. Appelyasiyaya ərizələrin sayı keçən illə müqayisədə 2 dəfə azalmışdır.

Payız semestrinin imtahan sessiyasının nəticələrini ilkin araşdırdıqda tələbələrin gündəlik fəaliyyətindən əldə etdiyi bal və test üsulu ilə kompyuterlərlə aparılan imtahanların birgə nəticəsinə əsasən kəmiyyət və keyfiyyət göstəriciləri cüzi miqdarda aşağı olsa da, 94,4% və 59,7% (keçən il 95,1% və 60,7%), «əla» qiymətlər xeyli yüksək - 41,3% (keçən il31,6%) olmuşdur.







"2015/2016-cı tədris ilinin əvvəlindən başqa universitetlərə keçidlə əlaqədar olaraq 45 tələbə (onlardan 35 nəfər Türkiyə universitetlərinə keçidlə əlaqədar, 10 nəfər isə başqa səbəblərdən) universitetdən xaric olmuşlar. Bu barədə xarici tələbələr dekanlığı mütəmadi olaraq xarici ölkələrin səfirlikləri və nümayəndələri ilə görüşlərdə onlara şifahi və yazılı olaraq məlumatlar verilmişdir.

Sözünə davam edən N.Qasımov dedi ki, bununla yanaşı ölkə Prezidentinin «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə milli strategiyanın təsdiq edilməsi barədə» Sərəncamına müvafiq olaraq ölkənin təhsil sferasında, o cümlədən ali təhsil müəssisələrində də geniş miqyaslı tədbirlərin həyata keçirilməsi davam etdirilir: "Azərbaycan Respublikası Millətlərarası Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət Müşavirinin məktubuna əsasən bakalavr və ali tibb təhsilinin əsas təhsili pilləsində «Multikulturalizmə giriş» fənninin tədrisinə başlanılmışdır.

Cari tədris ilinin payız semestrinin imtahan sessiyasının obyektivlik, aşkarlıq və şəffaf şəkildə keçirilməsi ilə bağlı ənənəvi olaraq professor-müəllim heyəti ilə tələbələrin birgə yığıncaqları keçirilmiş və bu yığıncaqlarda qarşıya çıxan və həlli vacib olan bütün məsələlər operativ qaydada həll edilmişdir. Kafedralarda ayrı-ayrı fənlərdən test bankının yaradıl-

haqqları əldə olunan əlavə vəsaitlərin hesabına 2 dəfə, 2016-cı ildə isə 1 dəfə artırılmış, yeni il qabağı bütün əməkdaşlara 100 manat məbləğində yardım verilmişdir.

Cari tədris ilindən universitetin bütün ixtisas və kurslarında tədris kredit sistemi ilə aparılır. Yeni sistem ilk illərdə müəyyən çətinliklər yaratsa da, ilbəil tədris prosesi təkmilləşdi, çətinliklər aradan qalxdı, professor-müəllim heyəti və tələbələrimiz də bu sistemə uyğunlaşdı. Aparılan islahatlar nəticəsində məzunlarımız daha yaxşı bilik və bacarıq əldə edərək bir hissəsi təhsillərini ölkəmizdə və ya xarici ölkələrdə rezidentura və magistraturada davam etdirir, digərləri isə Səhiyyə Nazirliyinin təyin etdiyi ixtisaslar üzrə həkimlik fəaliyyətinə başlayırlar.

2015-ci ilin noyabr ayından başlayaraq universitetin və fakültələrin elmi şuralarında, rektorluq şurasında və mərkəzi metodik komissiyanın iclaslarında 2015/2016-cı tədris ilinin payız semestrində universitetdə tədrisin təşkili və gedişi, payız semestrinin

dan 198 nəfərin yalnız 1 fəndən, 55 nəfərin 2 fəndən, 76 nəfərin 3 fəndən akademik borcu qalmışdır.

Universitet üzrə mütləq mənimsəmə göstəricisi 94,4% (keçən il 95,1%), keyfiyyət göstəricisi 59,7% (keçən il 60,7) olub.

Payız semestrinin imtahan sessiyasının nəticələrinə görə universitet üzrə əlaçılar 17% (keçən ilin müvafiq dövründə 10,3%), akademik borcu qalanlar isə 5,5% (4,9%) olmuşdur.

Kredit sistemi ilə 133 fənn üzrə imtahan verilmişdir ki, onların 90-da «qeyri-kafi» qiymət qeyd olunmamışdır".

N.Qasımov vurğuladı ki, universitet rəhbərliyi ayrı-ayrı klinikalarda və kafedralarda professor-müəllim heyəti ilə görüşlərində Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının ən vacib hədəfləri barəsində, kredit üsulu ilə tədrisin aparılma qaydaları haqqında, testlərin hazırlanması, tələbələrin praktik məşğələlərdə və seminarlarda fəaliyyətinin qiymətləndirilməsi, bacarıqla-

Eyni zamanda 158-hazırlıq şöbəsinin dinləyiciləri payız semestrinin imtahan sessiyasında dil fənnindən imtahan veriblər.

Cari tədris ilində test imtahanları üçün suallar dəfələrlə ekspertizadan keçsə də, yuxarıda qeyd etdiyim kimi, bir sıra kafedralar tərəfindən hazırlanmış testlərdə yenə də səhvlər aşkar olunur. Keçən illə müqayisədə bu xeyli azalsa da, təəssüf ki, istər texniki, istərsə də mövzu qüsurları hələ də vardır.

Məruzəçi bildirdi ki, bu il 600-dən çox bal toplayan 395 nəfər əlaçı kimi bizim universitetin I kursuna daxil olmuşlar ki, onların da 24 nəfəri Prezident təqaüdçüsüdür. Tədris ilinin əvvəlinə universitetdə 55 Prezident təqaüdçü təhsil alırdı. Sessiyanın nəticələrinə görə onların sayı 45 nəfərə qədər azalıb. Sessiya müddətində 9 təqaüdçümüz sessiyanı «əla» qiymətlərlə başa vurmadığına görə əlaçılıqdan düşmüşlər. Bünlardan 8 nəfəri I kurs, 1 nəfəri II kurs tələbələridir.

(davamı səh. 4-də)

# Tədris Terapevtik Klinikanın Tibbi Şurasının genişləndirilmiş iclasında

**Martın 3-də ATU-nun Tədris Terapevtik Klinikasının Tibbi Şurasının genişləndirilmiş iclası keçirilib. Klinikanın direktoru professor Surxay Musayev iclası açaraq gündəlikdəki məsələlərlə bağlı şura üzvlərini tanış edib. S.Musayev klinikada çalışan xanım professor-müəllim heyətini və əməkdaşları qarşıdan gələn 8 Mart Beynəlxalq Qadınlar bayramı münasibətilə təbrik edib.**



Gündəlikdə olan birinci məsələ ilə bağlı baş həkim, dosent Ramin Bayramlı çıxış edib.

O, klinikanın fevral ayındakı müalicə-diaqnostik fəaliyyəti ilə bağlı hesabatı şura üzvlərinin diqqətinə çatdırıb.

Fevral ayı ərzində klinikanın şöbələrində stasionar və gündüz rejimdə müalicə alan pasiyentlər barədə ətraflı məlumat verən baş həkim, ötən ayla müqayisədə fevral ayında daha çox xəstə qəbul olunduğunu bildirib.

Reanimasiya və İntensiv terapiya şöbəsinin fəaliyyətini xüsusi vurğulayan baş həkim qeyd edib ki, fevral ayında bu şöbəyə çox ağır vəziyyətdə 5 uşaq gətirilmişdi. Onlar ağciyərlərin atelektazı diaqnozu ilə klinikamıza gətirildi və həkimlərin səyi nəticəsində həmin uşaqlar çox ağır vəziyyətdən çıxarılaraq, müvafiq şöbələrə köçürüldü. Ən müasir imkanlara və peşəkar kadrlara malik uşaq reanimasiya şöbəsinin yaradıldığını vurğulayan baş həkim bildirdi ki, ağciyərlərin atelektazı, pnevmoniya, pnevmotoraks diaqnozları ilə daxil olan və artıq 30 gündür ki, müalicə alan daha bir uşağın vəziyyətində də yaxşılığa doğru çox ciddi irəliləyişlər var, xəstə artıq süni tənəffüsdən ayrılıb. O da həkimlərin qərarı ilə yaxın günlərdə şöbəyə köçürüləcək.

2015-ci ilin fevral ayı ilə müqayisədə xəstələrin sayında azalma müşahidə edildiyini deyən baş həkim onu da qeyd edib ki, klinikada xəstəlik tarixlərinin təhlilinin aparılması zamanı əslində bu göstəricinin kəmiyyətcə olduğu, xəstələrin ağırlıq dərəcəsinin isə daha geniş profilli olduğu anlaşılır. Klinika ildən-ilə daha ağır xəstələri qəbul edir.

Gündəlikdə olan ikinci məsələ ilə bağlı Universitetin Tədris-Metodik İnnovasiyalar şöbəsinin rəhbəri, professor Akif Qurbanov çıxış edərək tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsindəki yeni meyarlardan söz açıb.





O bildirib ki, tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsində müəllimlər daha obyektiv və düzgün mövqe nümayiş etdirməli və hazırlanmış innovativ jurnaldan daha çox istifadə etməlidirlər. Bu jurnalla tələbələrin gündəlik bilik səviyyəsi qiymətləndirilərsə, o zaman daha yaxşı nəticələr əldə etmək mümkün olar.

Qiymətləndirmə meyarları haqqında məlumat verən professor qeyd edib ki, bu haqda universitetin saytında da informasiya yerləşdirilib və müəllimlər istədikləri zaman ordan məlumatlar əldə edə bilərlər.

Qiymətləndirmədəki problemləri aradan qaldırmağın yollarından danışan professor, müəllimlərə tələbəni biliyinə uyğun qiymətləndirməyi və müvafiq qaydalara əməl etməyi məsləhət görüb.

Gündəlikdəki üçüncü məsələ ilə bağlı professor Sədaqət Hüseynovanın çıxışı dinlənilib.

O, Elektromioqrafiya kabinetinin fəaliyyəti barədə danışıb.

S.Hüseynova Elektromioqrafiyanın vəzifələri barədə danışarkən vurğulayıb ki, burdakı müasir kompyuterləşdirilmə ilə genişləndirilmiş müayinə üsullarının sayəsində əzələnin özü haqda geniş məlumat əldə etmək imkanımız var və biz bu sahədə daha böyük uğurlar əldə edəcəyimizə inanırıq.

S.Hüseynova ilk dəfə Klinikada diaqnozu təyin edilən xəstələrə dair maraqlı slaydlar nümayiş etdirib.

Daha sonra qan bankı xidmətinin klinikanın fəaliyyətindəki rolu barədə Xəyalə Qafarova məlumat verib.

X.Qafarova bildirib ki, qan bankı 2014-cu ilin avqust ayından universitetin Qan Bankının şöbəsi kimi fəaliyyətə başlayıb.

Klinikanın qan bankında ən müasir cihazlardan istifadə olunduğunu söyləyən X. Qafarova göstərilən xidmətlərdən danışıb, istifadə olunan cihazların sayəsində bütün növ terapevtik prosedurları həyata keçirməyin mümkünlüyünü vurğulayıb.

Klinikada bütün növ qan məhsullarının hazırlanması, həmçinin periferik kök hüceyrənin alınması və saxlanılması üçün hər cür şəraitin yaradıldığı bildirilib.

Çıxışlara yekun vuran direktor S.Musayev bildirib ki, yeni xidmət sahələri klinikanın imkanları hesabına yaradılıb və bu iş bundan sonra da davam etdiriləcək. Burada ən ümdə məqsədimiz isə əhaliyə keyfiyyətli tibbi xidmət göstərməklə yanaşı, yüksək səviyyəli tibbi təhsilə nail olmaq, həkim-mütəxəssislər hazırlamaqdır.

Daha sonra klinikanın yeni variantda hazırlanmış saytının təqdimatı keçirilib.

Toplantı cari məsələlərin müzakirəsi ilə işini yekunlaşdırıb.

# Uroloqlar Assosiasiyasının növbəti tədbiri keçirildi

Azərbaycanda urologiya sahəsi günü-gündən inkişaf etməkdədir. Artıq Avropalı mütəxəssislər də bu sahədə Azərbaycanlı həmkarları ilə iş birliyi qururlar.



Mirqasımov adına Azərbaycan Uroloqlar Assosiasiyası son iki ay ərzində Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında silsilə tədbirlər keçirir.



Bu günlərdə ATU-nun Tədris Cərrahiyyə Klinikasında Assosiasiyanın yekun toplantısı baş tutdu. Keçirilən tədbirdə 40-dan çox uroloq iştirak edirdi. Tədbirə urologiya kafedrasının müdiri, Azərbaycan Uroloqlar Cəmiyyətinin sədri, Akademik Südeyf İmamverdiyev və tibb elmləri doktoru, professor, əməkdar həkim Kamal Abdullayev sədrlik edirdi.

Tədbirdə sidik axarıləyən seqmentində və böyrəyin hidronefrozunda plastik əməliyyatlar zamanı aparılan müdaxilələrin effekti və alınan nəticələr, o cümlədən ayrı-ayrı klinikalarda bu tipli əməliyyatların aparılma qaydaları haqqında müzakirələr aparıldı.

Tədbirdə uroloq Bəhruz Ağayev hidronifroz zamanı aparılan müxtəlif tipli əməliyyatlar, ləyən-sidik axarı seqmentinin dağılması zamanı aparılan plastik əməliyyatlar, o cümlədən Anderson Haynes üsulu ilə plastik əməliyyatların nəticələri haqqında məruzə etdi. Məruzələr həkimlər tərəfindən maraqla qarşılandı.

**ATU-nun mətbuat xidməti**

# Macarıstanın Semmelveis Universiteti ilə anlaşma memorandumu imzalanıb

**Macarıstanın baş naziri Viktor Orbanın rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda səfərdə olub. Səfər zamanı iki dövlət arasında bir sıra sahələrdə, həmçinin tibb və təhsil sahəsində önəmli sənədlər imzalanıb.**

İldən-ilə beynəlxalq əlaqələrini gücləndirən Azərbaycan Tibb Universiteti ilə Macarıstanın Semmelveis Universiteti arasında anlaşma memorandumu imzalanıb. Saziş Macarıstan nümayəndə heyətinin Azərbaycanın baş naziri Artur Rasizadə ilə görüşü zamanı baş tutub.



Əvvəlcə Azərbaycanın və Macarıstanın Baş nazirlərinin təkbətək görüşü olub. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Azərbaycan tərəfindən görüşdə Tibb Universitetinin rektor əvəzi Sabir Əliyev də iştirak edib.

Artur Rasizadə Viktor Orbanı və başçılıq etdiyi nümayəndə heyətini ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Azərbaycanın və Macarıstanın dost dövlətlər olduğunu vurğulayan A.Rasizadə ölkəmizin bütün sahələrdə Macarıstan ilə əməkdaşlığa önəm verdiyini söyləyib.

Görüşdə Macarıstan nümayəndə heyətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verən baş nazir deyib ki, təcavüzkar siyasətini davam etdirən Ermənistanın tutduğu qeyri-konstruktiv mövqeyə görə münaqişə indiyədək həll edilməyib. ATƏT-in Minsk qrupunun problemin həlli ilə bağlı vasitəçilik səyləri hələ də heç bir nəticə verməyib.

V. Orban ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük potensial imkanların olduğunu bildirib. 1990-cı illərin əvvəllərində Azərbaycanın çətin vəziyyətlə üzləşdiyini xatırladığını deyən Macarıstanın baş naziri bu gün ölkəmizdə sürətli inki-



şafın şahidi olduğunu vurğulayıb.

Görüşdə iqtisadi, investisiya yatırımı, nəqliyyat, energetika, humanitar və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Sonra müxtəlif sahələri əhatə edən sənədlər imzalanıb. "Macarıstanın Semmelveis Universiteti ilə Azərbaycan Tibb Universiteti arasında Anlaşma Memorandumu"nu Semmelveis Universitetinin rektoru Aqostan Szel və Azərbaycan Tibb Universitetinin rektor əvəzi Sabir Əliyev imzalayıblar.

Anlaşma memorandumuna görə, iki universitet tədris sahəsi, tələbə və rezidentlərin mübadiləsi, təcrübə bölüşməsi üzrə geniş əməkdaşlıq edəcəklər.

# İmtahan sessiyasının yekunları müzakirə olundu

(əvvəli səh. 2-də)

600-dən çox yuxarı bal toplayan 395 nəfərdən isə yalnız 14 nəfəri sessiyanı «əla» qiymətlərlə başa vurmuşdur. Onlardan 220 nəfəri «əla» və «yaxşı», 122 nəfəri qarışıq qiymətlər əldə etmişlər".

N.Qasımov çıxışının sonunda qeyd etdi ki, 2015/2016-cı tədris ilinin payız semestrinin imtahan sessiyanın nəticələri bir daha göstərir ki, istər dekanlıqların, istərsə də kafedraların və professor-müəllim heyətinin bu sahədə görəcəyi işlər hələ çoxdur. İlbəil kafedraların maddi-texniki bazasının yaxşılaşması, yeni dərsliklərin və dərs vəsaitlərin nəşr olunması, professor-müəllim heyətinin keyfiyyətcə yeniləşməsinə baxmayaraq tədrisin nəticəsi ona uyğun gəlmir.

Məruzə ətrafında çıxış edən professorlar Çərkəz Cəfərov, Mirzə Kazımov, Musa Qəniyev, Qayıbverdi İsgəndərov, Akif Qurbanov, Çingiz Rəhimov, Abuzər Qazıyev klassik imtahanla mövcud kredit sisteminin fərqli cəhətlərindən söhbət açdılar, qarşıya çıxan problemlərdən danışdılar. Onlar çalışdıqları kafedralarda bu istiqamətdə aparılan işlərin kəmiyyət və keyfiyyət göstəriciləri haqqında ümu-



mi məlumat verdilər. Natiqlər test sisteminin daha da təkmilləşdirilməsi məqsədilə qarşıya çıxan çatışmazlıqların aradan qaldırılması və əlverişli şəraitin yaradılması üçün təklif və rəylərini irəli sürdülər.

Müzakirələrə yekun vuran Sabir Əliyev çıxışlarda səslənən fikirlərə və irəli sürülən təkliflərə öz münasibətini bildirdi: "Elə etmək lazımdır ki, tələbə testi öyrənmək məcburiyyətində qalsın. Suallar normativ standartlara uyğun tərtib edilməli, cavablar isə düşündürücü qoyulmalıdır. Mən hesab edirəm ki, əgər testlərin sayını bir az da artırıb sualları mürəkkəbləşdirsək istənilən nəticəni əldə etmək olar. Kafedralarda cavabdeh şəxs kafedranın müdiridi. Onu ora təyin ediblər ki, dərsin keyfiyyətini yüksəltsin, müəllim və tələbələrin dərsə davamiyyətinə nəzarət etsin. Çox təəssüf ki, aramızda elələri vardır ki, işlərinə məsuliyyətiz yanaşır, üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlmirlər. Lakin işini bacaran kifayət qədər kafedra müdirlərimiz də var. Bir il tələbə sizin əlinizdədir öyrədin də, bir semestrin mövzusunu bir neçə günə öyrətmək mümkün deyil. İşinizi əsasnaməyə uyğun qurun ki, sonra belə neqativ hallar baş verməsin. Kəmiyyət və keyfiyyətin qiymətlədirilməsinə çox ciddi yanaşılmalı, dərsə davamiyyətə nəzarət gücləndirilməlidir. Tibb təhsilində nə qədər yüksək səviyyəli infrastruktur, tədris vəsaiti, maliyyə imkanları olsa belə, keyfiyyətli professor-müəllim heyəti formalaşdırmadan təhsili inkişaf etdirmək mümkün deyil. Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşması, əsasən müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən çox asılıdır."

İmtahan prosesinin ümumimilikdə ağır bir iş olduğunu diqqətə çatdıran S.Əliyev virtuaz test mərkəzinin bu sahədəki rolunu qeyd etdi, məruzəni əhatəli və qənaətbəxş qiymətləndirdi, müxtəlif məsələlər barədə də şura üzvlərini məlumatlandırdı.

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**MƏNSUR**

**Fotolar Cənnətalı Çingizindir**

# İctimai Səhiyyə və İslahatlar Mərkəzinin əməkdaşları tütünlə mübarizəyə dair beynəlxalq seminarda iştirak edib

**Moskvada tütünlə mübarizədə KİV-lərin potensialının gücləndirilməsi üzrə keçirilən beynəlxalq seminarda Azərbaycanın Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) əməkdaşları Tofiq Musayev, Aytən Məmmədova və Ayla Ələsgərova təmsil ediblər.**

Dünya Səhiyyə Təşkilatının Avropa Regional Ofisinin təşkilatçılığı ilə keçirilən seminarın məqsədi tütün əleyhinə mübarizə sahəsində ən son elmi nailiyyətlərin və yeniliklərin təqdim edilməsi, ölkələrdə bu sahədə uğurla həyata keçirilən fəaliyyət və strategiyalar barədə məlumatların verilməsi olub. Seminarda çıxış edənlər son on ildə tütün əleyhinə mübarizədə effektiv siyasətin əsas komponentlərinə və onların icrasına, eləcə də təhlükəsizlik strategiyalarına diqqət yetiriblər. Həmçinin tütünlə mübarizədə iştirakçı ölkələr arasında əldə olunmuş uğurlardan, tütünçəkmənin qadağan olunmadığı ictimai yerlərin sayının ildən-ilə azalmasından, tütün məhsullarının qablaşdırılmasında istifadə olunan şəkilli xəbərdarlıq üsullarından söhbət açılıb.

İSİM-in əhalinin sağlamlığı şöbəsinin müdiri Tofiq Musayev Azərbaycanda tütünçəkmə nəticəsində yaranan qeyri-infeksion xəstəliklərin azaldılması sahəsində görülən işlərdən danışıb. Məlumat verilib ki, Azərbaycanda qeyri-infeksion xəstəliklər üzrə mübarizə səhiyyə sisteminin və ümumiyyətlə dövlətin prioritet vəzifələrindən biridir. Hələ 2012-ci ildə qəbul edilən "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyri-infeksion xəstəliklərə qarşı mübarizəyə dair strategiyanın hazırlanması işinə başlanılıb. 2015-ci il dekab-



rın 23-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərə qarşı mübarizəyə dair 2015-2020-ci illər üzrə Strategiya"nın əsas məqsədi ölkəmizdə həyata keçirilən birgə və inteqrasiya olunmuş tədbirlər vasitəsilə əhalinin sağlamlığının yaxşılaşdırılmasına, o cümlədən qeyri-infeksion xəstəliklərlə bağlı vaxtından əvvəl ölüm hallarının əhəmiyyətli azaldılmasına nail olmaqdır.

Şöbə müdiri bildirib ki, strategiyanın vəzifələri bu xəstəliklərlə mübarizə üzrə səmərəli sahələrarası əməkdaşlıq mexanizminin yaradılması, qeyri-infeksion xəstəliklərin risk faktorlarından olan tütündən istifadəni azaltmaq sahəsində işlərin aparılmasıdır. Əhalinin maariflədirilməsi məqsədilə yenilik olaraq İSİM tərəfindən "Hər günün tütünsüz olsun!" aksiyasına həsr olunmuş www.nosmoke.az saytı yaradılıb, eləcə də tütünlə mübarizəyə aid həm əhali, həm də mütəxəssislər üçün faydalı məlumatları özündə cəmləşdirən www.tobacco-control.az elektron portalı istifadəyə verilib.

**ATU-nun mətbuat xidməti**

**Dünya əhalisinin təxminən 10 faizi xroniki böyrək xəstəliklərindən əziyyət çəkir və hər il milyonlarla insan bu xəstəliklərin fəsadlarından tələf olur. Dünya Böyrək Gününün keçirilməsində məqsəd anadangəlmə və sonradan qazanılmış böyrək xəstəliklərinin profilaktikası və vaxtında düzgün müalicəsinə diqqəti artırmaq, həmçinin xroniki böyrək çatışmazlığı yarada bilən digər xəstəliklərin (şəkərli diabet, arterial hipertenziya və s.) müalicəsi ilə məşğul olan mütəxəssislərlə birgə əməkdaşlığı daha da inkişaf etdirmək, əhali arasında təbliğat işlərini gücləndirməkdən ibarətdir.**

# ÜMUMDÜNYA BÖYRƏK GÜNÜ QEYD OLUNDU





Bu məqsədlə martın 10-da Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında respublikanın bütün hemodializ mərkəzlərinin və Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun nefrologiya kafedrasının əməkdaşlarının, terapevtlər və transplantoloqların, həmçinin bu sahə ilə maraqlanan mütəxəssislərin iştirakı ilə elmi-praktiki konfrans keçirilib. Konfransı giriş sözü ilə açan ATU-nun rektor əvəzi, professor Sabir Əliyev bildirib ki, dünya səhiyyəsinin mühüm problemlərindən biri də xroniki böyrək xəstəliyidir: "Təəssüf ki, bu xəstəlik ölkəmizdə də geniş yayılıb. 2006-cı ildən başlayaraq Amerika Nefroloji Assosiasiyası və Beynəlxalq Böyrək Fondunun təklifi ilə hər il mart ayının ikinci həftəsinin dördüncü günü Dünya Böyrək Günü kimi qeyd olunur. Bu xəstəliyin aradan qaldırılmasına, mövcud sahədə problemin həllinə hər bir ictimai qrup və insan qoşulmalıdır. Yalnız birgə əməkdaşlıq, diqqət və qayğı sayəsində xəstələrə yardım etmək olar." O, ölkəmizdə bu problemin həlli üçün 2006-cı ildə Nazirlər Kabineti tərəfindən xroniki böyrək xəstəliyinə dair Dövlət Proqramının qəbul olunduğunu, bu xəstəliklə mübarizəyə dövlətimizin və o cümlədən möhtərəm Prezidentin xüsusi diqqət və qayğısını vurğulayaraq, son illər regionlarda açılan yeni dializ mərkəzlərinin əhalinin dövlət hesabına müalicə almasına imkan yaratdığını qeyd edib. Böyrək transplantasiyasının uğurla həyata keçirilməsindən söhbət açan S.Əliyev bu sahə üzrə bacarıqlı mütəxəssislərin hazırlanmasından da söhbət açıb. Sonra akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının hemodializ şöbəsinin müdiri Fariz Babayev "Azərbaycanda böyrək əvəzedici terapiyanın 2015-ci il registri" mövzusunda məruzə ilə çıxış edib. O, məlumat verib ki, bu gün Azərbaycanda xroniki böyrək çatışmazlığından 2842 nəfər əziyyət çəkir. Dializ xəstələrinin 1138-i Bakıda, 1704-ü regionlarda müalicə alırlar. Onlar regionlarda yerləşən 26 və Bakıdakı 8 hemodializ mərkəzində dövlət hesabına hemodializlə təmin olunublar. O deyib: "Hazırda xəstələrə 3 növbəli əsasda 534 hemodializ aparat fəaliyyət göstərir. Bir aparat gün ərzində 6 xəstəyə xidmət edir ki, bu da 3 mindən artıq xəstəyə xidmət deməkdir. Bu səbəbdən ölkəmizdə hemodializ növbəsi yoxdur. Ümumiyyətlə, xroniki böyrək çatışmazlığı uzun sürən böyrək xəstəliyi nəticəsində əmələ gəlir. Bu tendensiyaya həm dünyada, həm də ölkəmizdə rast gəlinir. Azərbaycanda hemodializ qəbul edən xəstələrin əksəriyyətində böyrək xəstəliyinə səbəb əsasən şəkərli diabetdir".

Şöbə müdiri çıxışında böyrək çatışmazlığı xəstəliyinin müalicəsində mövcud problemlərdən də danışıb. Deyib ki, bu sahədə ən böyük problemlərdən biri kadr çatışmazlığıdır. Hazırda dializ müalicəsi ilə məşğul olan 171 həkim vardır ki, bu da yetərincə deyil. Dializ müalicəsi ilə məşğul olan orta tibb işçilərinin sayı isə 408 nəfərdir.




F.Babayev əlavə olaraq onu da qeyd edib ki, ölkəmizdə 1971-ci ildə keçirilən böyrək köçürülməsi əməliyyatları hazırda bərpa olunub. Ölkə üzrə indiyədək 611 böyrək transplantasiyası əməliyyatı aparılıb. Ötən il isə 93 xəstəyə böyrək köçürülüb. Bunun 81-i Mərkəzi Neftçilər Xəstəxanasının payına düşür. Konfransda həmçinin "Uşaqlarda sidik yolları infeksiyasının müasir müalicə taktikası", "Böyrək əvəzedici terapiya alan xəstələrdə arterial hipertenziyanın müalicəsi", "Renal anemiya müalicəsinə müasir baxış", "XBÇ-dən əziyyət çəkən pasiyentlərdə HCV-nin müalicə prinsipləri", "Periton dializinin BXX-nin müalicəsində yeri və perspektivləri" mövzularında elmi məruzələr dinlənilib.

**Q.ABDULLAYEV**

**1 MART ÜMUMDÜNYA MÜLKİ MÜDAFİƏ GÜNÜDÜR**

# MÜLKİ MÜDAFİƏ GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

**◆ Hər il olduğu kimi, bu il də martın 1-i Mülki Müdafiə gününə həsr olunmuş tədbir keçirilmişdir.**

ATU-nun MMTX təşkili kursunun növbəti dəfə keçirdiyi **1 mart – Ümumdünya Mülki Müdafiə Gününün** mövzusu «Mülki müdafiə və yeni informasiya texnologiyaları» seçilmişdir.





MMTX təşkili kursunun müdiri – hərbiləşdirilmiş MM qüvvələrinin ümumi komandiri Aqil Musayev çıxış edərək "1 mart - Ümumdünya Mülki Müdafiə Günüdür", «Mülki müdafiə və yeni informasiya texnologiyaları» mövzusunda məruzə etmişdir. Məruzəçinin çıxışında Beynəlxalq Mülki Müdafiə Təşkilatının yaranma tarixi və fəaliyyəti istiqamətləri, 1 mart- Ümumdünya Mülki Müdafiə Günü və onun qeyd edilməsinin məqsədi, Azərbaycan Respublikasının Beynəlxalq Mülki Müdafiə Təşkilatına üzvlüyü, Azərbaycan Respublikasının Mülki Müdafiə sistemi, eləcə də mülki müdafiə təbliğatı və əhalinin fəlakət riskinin qarşısının alınmasına necə hazırlanması barədə ətraflı məlumat verilmişdir.

Bildirilmişdir ki, BMT-nin Baş Məclisinin qərarı ilə 1972-ci ildən etibarən hər il 1 Mart bütün ölkələrdə Ümumdünya Mülki Müdafiə günü kimi qeyd olunur. Ulu öndərimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra onun təşəbbüsü ilə 1993-cü ilin oktyabr ayından Azərbaycan Respublikası Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvlüyünə qəbul olunmuş və onun keçirdiyi bütün tədbirlərdə fəal iştirak edir. Bu sahədə dövlətin siyasətini Fövqəladə Hallar Nazirliyi layiqincə həyata keçirir.

Tədbirdə Nəsimi rayon Fövqəladə Hallar və Mülki Müdafiə şöbəsinin rəisi, mayor Musa Məhərrəmov və ATU-nun Mülki Müdafiə Qərargah rəisi Firdovsi Məmmədov iştirak etmişlər.

Təbib





# İ.İSMAYILOV:
## "ƏMƏKDAŞLARIMIZ YÜKSƏK İXTİSASLI MÜTƏXƏSSİSLƏR KİMİ KAFEDRANIN KLİNİK BAZALARINDA MÜALİCƏ İŞLƏRİNƏ RƏHBƏRLİK EDİR"

**◆ Azərbaycan Tibb Universiteti yarandığı 1930-cu ildən bu günədək mənalı, olduqca keşməkeşli bir yol keçib. Universitet o vaxtdan indiyədək həkimlik peşəsini yüksək tutan, Hippokrat Andına sadiq qalan və bu peşənin şərəfini istər ölkəmizdə, istərsə də ölkənin hüdudlarından kənarda qorumağa müvəffəq olan həkimlər ordusunun yetişməsinə öz töhfələrini verə bilib. Savadlı kadrların yetişməsi və formalaşmasında isə kafedraların rolu danılmazdır. Hazırda universitetdə 70-dən çox kafedra fəaliyyət göstərir. Biz bu rubrikamızda ayrı-ayrılıqda kafedraların yaranması, dünəni və bu günü ilə bağlı oxuculara ətraflı məlumat verməyi qərarlaşdırmışıq.**

İndi isə ilk olaraq I daxili xəstəliklər və reanimatologiya kafedrasının tarixindən başlayaq. Qeyd edək ki, I daxili xəstəliklər kafedrası 1969-cu ildə I Hospital terapiya kafedrasından ayrılaraq 1969-1974-cü illərdə pediatriya fakültəsinin hospital terapiya, 1974-1985-ci illərdə I müalicə-profilaktika hospital terapiya, 1985-1991-ci illərdə I daxili xəstəliklər kafedrası kimi fəaliyyət göstəribdir. Kafedranın ilk əməkdaşları professor H.İsazadə, professor Z.Tağızadə, dosent Ə.Mehdiyev, dosent E.Mahmudbəyova olublar. Kafedraya 1969-1990-cı illərdə ə.e.x, professor H.İsazadə, 1990-1991-ci illərdə isə professor A.Baxşəliyev rəhbərlik edib. Anesteziologiya və reanimotologiya kafedrası ilk dəfə 1974-cü ildə yaranarkən kafedraya professor A.Axunbəyli rəhbərlik edib, əməkdaşları isə dosent E.İsmayılov, t.e.n. V.Soskin, t.e.n. E.Eldarova olublar.



Kafedra 1991-ci ildə universitetdə aparılan islahatlar nəticəsində yenidən təşkil olunub. Yəni kafedra I daxili xəstəliklər və anesteziologiya-reanimatologiya kafedralarının birləşməsi nəticəsində yaranıbdır. 1991-ci ildən 2010-cu ilin yanvar ayına qədər kafedraya ə.e.x. A.Axunbəyli rəhbərlik edib, həmin vaxtdan etibarən isə bu kafedra professor İsfəndiyar İsmayılovun rəbərliyi ilə fəaliyyətini günün tələbləri səviyyəsində qura bilib.



**Bəs hazırda kafedrada ümumi vəziyyət necədir? Kadr hazırlığı, elmi və tədris işləri necə təşkil olunur?**

Son dövrlər kafedrada aparılan yeniliklərlə bağlı suallarımıza kafedranın müdiri, professor İsfəndiyar İsmayılov ətraflı cavab verib. Onun "Təbib"ə verdiyi açıqlamaya görə, hazırda I daxili xəstəliklər və reanimatologiya kafedrasında 36 əməkdaş çalışır. Bunlardan 3-ü t.e.d, professor, 9-u tibb üzrə fəlsəfə doktoru, dosent, 14-ü assistentdir: "Elmi işlərə gəlincə, bu illər ərzində kafedrada 8 doktorluq və 40-dan çox namizədlik dissertasiyası yerinə yetirilib. 1300-dən çox elmi məqalə, 20-dən çox dərslik və dərs vəsaiti, 90-dan çox tədris-metodik işləmələr işıq üzü görübdür. Kafedranın elmi istiqamətlərini ürəyin koronar xəstəliyin diaqnostikası, profilkatikası və müalicəsinin səmərələşdirilməsi, böhranlı vəziyyətlərdə intensiv müalicənin təkmilləşdirilməsi təşkil edir." Tədrisin yüksək səviyyədə aparıldığını qeyd edən kafedra müdiri I müalicə işi fakültəsinin IV-VI və Hərbi-tibbi fakültəsinin IV kurslarında daxili xəstəliklər və peşə xəstəlikləri, I və II müalicə işi fakültələrinin V və VI, Hərbi-tibbi fakültənin V və Hərbi Tibbi Məktəbin II kurslarında reanimatologiya fənlərinin tədris olunduğunu bildirdi.

Əlavə olaraq onu da qeyd etdi ki, kafedrada savadlı və təcrübəli kadr hazırlığına ciddi diqqət və yetərincə qayğı var: "Kafedranın əməkdaşları yüksək ixtisaslı mütəxəssislər kimi kafedranın kliniki bazalarında – Tədris Terapevtik, Tədris Cərrahiyyə klinikalarında və I saylı Şəhər Xəstəxanasında müalicə işlərinə rəhbərlik edir və Bakı şəhərinin digər tibb müəssisələrində məsləhətlər aparır, müalicə işlərində yardım göstərirlər. O cümlədən, son dövrlər kafedranın bazaları olan kardiologiya, reanimasiya və intensiv terapiya şöbələrində kardioloji və reanimatoloji yardım kifayət qədər yüksək səviyyədə təşkil olunub, kafedranın kadr potensialı xeyli güclənibdir" – deyən İ.İsmayılov bunun həm tədrisin, həm də elmi-tədqiqat işlərinin daha yeni və yüksək pilləsini əldə etməyə imkan verdiyini də diqqətimizə çatdırdı.

**Qabil ABDULLAYEV**

# Alimlər uşaqlar üçün yeni "qara siyahı" hazırlayıb

Amerikalı mütəxəssislər uşaqlar üçün zərərli olan qidaların yeni siyahısını açıqlayıb.

A Z Ə R T A C



"dni24.com" saytına istinadla xəbər verir ki, bu siyahıda olan yeməkləri uşaqlara verməyi alimlər məqbul saymır. "Qara siyahı" əsasən hazır qidalardan ibarətdir. Onların hamısı artıq çəki yaradır. Alimlər bundan əvvəl də zərərli qidalarla bağlı siyahı hazırlamışdı, orada zərərli ərzaqlar arasında ilk yeri çipsilər və qazlı sular tuturdu. Yeni siyahıda çeşidlərin sayı artırılıb və bura kartof-fri, qızardılmış balıq, istənilən növ şirniyyatlar, habelə dəfələrlə istifadə olunmuş yağ daxil edilib.

Un məmulatları da çəki artıran məhsul hesab olunub. Çipsi və qazlı sular yenə də siyahıda saxlanılıb. Alimlər bildiriblər ki, siyahıya daxil edilən məhsulların uşaq orqanizmi üçün heç bir faydası yoxdur. Bu qidalar yalnız əlavə çəki yığmağa yarayır. Müxtəlif növ süd kokteyllərindən də imtina etmək gərəkdir, onlar da zərərli qidalar siyahısındadır.

Faydalı ərzaqlara gəlincə, mütəxəssislər uşaqları sıyıqlar, qədərincə çörək, tərəvəz, meyvə, göy-göyərti və göbələk yedizdirməyi məsləhət görür. Ət məhsullarından yalnız toyuq ətini rasiona daxil etmək olar.

# "GyroGlove" əlcəkləri titrəməni aradan qaldırır

Məlum olduğu kimi, ətrafların qeyri-iradi titrəməsi Parkinson xəstəliyinin əsas əlamətlərindən biridir. Bu xəstəlikdən əziyyət çəkən adamlar üçün onların həyat keyfiyyətini xeyli yaxşılaşdıracaq mexanizm hazırlanır.



Parkinson xəstəliyi dofamin mediatoru hasil edən hərəkətagətirici sinir hüceyrələrinin (neyronların) tədricən tələf olması ilə bağlı degenerativ nevroloji xəstəlikdir. Bu səbəbdən hərəkətlərin requlyasiyası və özünü səciyyəvi titrəmə şəklində büruzə verən əzələ tonusu pozulur, əl-qol hərəkətləri nəzarətdən çıxır. Bu vəziyyət xəstələrin gündəlik fəallığına və həyat keyfiyyətinə təsir göstərir.

AZƏRTAC "hi-news.ru" saytına istinadla xəbər verir ki, dərman terapiyası əsasən xəstəliyin erkən stadiyalarında səmərəlidir. Müalicə getdikcə səmərəsini itirir və bir sıra əlavə təsirlər əmələ gəlir.

İyirmi altı yaşlı britaniyalı tələbə Fai Onqun təklif etdiyi "GyroGlove" əlcəkləri titrəmənin əl-qol hərəkətlərinə təsirini mexaniki şəkildə aradan qaldıraraq, yuxarı ətrafı sabitləşdirmək iqtidarındadır.

İxtiraçı qeyd edir ki, bu əlcəyi geyinən pasiyent hiss edir ki, əl-qol hərəkətləri daha dəqiq və rəvan olub. O, adət etdiyi işləri əvvəlki kimi rahat yerinə yetirir, məsələn, özünə qəhvə dəmləmək, yaxud yemək hazırlamaq iqtidarında olur.

Artıq bazarda yüksək amplitudalı titrəmədən əziyyət çəkən adamlar üçün xüsusi mexanizmlər – çəngəl-bıçaq, qab-qacaq, qələmlər var, amma onlar bu problemi yetərincə həll etmir. Fai Onq bildirib ki, "GyroGlove" artıq tədqiqatın əvvəlində əllərin titrəməsini 90 faizə qədər azaltmağa imkan verir.

Qiyməti təqribən 600-900 dollar olan bu əlcəklər Böyük Britaniyada bu ilin sentyabrında satışa çıxarılacaq.

İxtiraçı ümid bəsləyir ki, əlcək təkcə Parkinson xəstələrinə deyil, həm də başqa etiologiyalı titrəmədən əziyyət çəkən pasiyentlərə kömək edəcək. "GyroGlove" əlcəklərinin kamandan oxatmada, foto və video çəkilişlərində tətbiq ediləcəyi ehtimal olunur.

# Mədə-bağırsaq xəstəliklərini yaradan başlıca faktorlar

Son zamanlar insanlar arasında mədə-bağırsaq xəstəlikləri geniş yayılıb. Burada bir çox faktorlar rol oynayır – genetik və xarici faktorlar, düzgün qidalanmamaq, rejimsizlik, düzgün olmayan həyat tərzi, maddələr mübadiləsinin pozulması və s.

## Hansı tip öskürəklər hansı xəstəliklərin əlamətləridir?

Bununla bağlı Tədris Terapevtik Klinikanın Qastroenteroloqu Vüqar Rəsulov mədə-bağırsaq xəstəliklərini yaradan səbəblər və onlarla mübarizə yolları barədə müsahibə verib.

**- Mədə-bağırsaq problemlərini yaradan başlıca səbəblər nələrdir?**

– Müasir dövrdə ən çox rast gəlinən problemlər əsasən həzmsizlik, köp, mədə yanması, qıcqırma, ağızda xoşagəlməz dad və qoxunun olmasıdır. Başlıca səbəb kimi stress faktorunu göstərmək olar. Bundan başqa qeyri-düzgün qidalanma, Helicobacter pillory mədə-bağırsaq xəstəliklərinin yaranmasına səbəb olur. Stresə bağlı olaraq ən çox rast gəlinən xəstəlik funksional dispepsiya və qıcıqlanmış bağırsaq sindromudur. Aparılan müayinələrdə həmin xəstələrdə orqanik patologiyalar müşahidə olunur. Lakin zaman keçdikcə, finksional problemlər digər amillərin təsiri nəticəsində orqanik xəstəliklərə çevrilə bilər.

**- Sizcə stress, əsəb mədə-bağırsaq xəstəliklərinə necə təsir edir?**

– Biz hər zaman həkim olaraq, bütün insanlara sağlam həyat tərzi, sağlam qidalanma məsləhət görürük. Bu da bir çox xəstəliklər kimi mədə-bağırsaq xəstəliklərinin də qarşısını almaqda kömək edəcək. Müasir zamanda aktiv həyat tərzi şəhərdə yaşayan insanlara adətən şamil edilmir. Çünki onlar daha çox oturaq həyat tərzi keçirir.

Əgər biz insan vücudunu bioloji mexanizm kimi nəzərə alsaq, istənilən mexanizmin istirahətə ehtiyacı var. Hətta




ürək də istirahətsiz işləmir.

Sizə maraqlı bir fakt deyim ki, ürəkdə xərçəng xəstəliyinə nadir hallarda rast gəlinir. Və bunun əsas səbəbi onun daim istirahət edərək işləməsidir. Təbii ki, insan vücuduna da daim istirahət lazımdır. Böyüklər, xüsusilə uşaqların gecə yuxusu çox önəmlidir. Ümumiyyətlə, gecə yuxusunda melatonin (gecə ifraz olunan qaranlıq hormonu – red) deyilən maddə ifraz olunur ki, bu uşaqlarda inkişafı təmin edir, böyüməni tənzimləyir.

Bir insan normal istirahət etmirsə və yuxusuz qalırsa, bu psixoemosional və fiziki qıcığa gətirib çıxarır. Bunun nəticəsində orqanizm istənilən təsirə daha həssas olur. Ona görə də belə orqanizmdə bakteriya və virus inkişaf edir.

**- Ağız boşluğunda xoşagəlməz qoxuların olması mədədə hansısa problemin olmasına işarədirmi?**

–Ağız boşluğunda qoxuların olması, həm də mədə-bağırsaq problemlərinin olmasının göstəricisidir. Qida borusunun divarında kisəcik əmələ gətirən defektlər varsa, bunun nəticəsində qidanın bir hissəsi orada toplanır və çürümə gedir. Nəticədə ağız boşluğunda xoşagəlməz qoxular əmələ gəlir. Digər tərəfdən əgər mədə boşalmasında ləngimə varsa, mədədə mikrob olarsa bu zaman mədə-bağırsaq problemləri ortaya çıxır.

Bilmək vacibdir ki, bir insan axşam gec saatlarında yemək yeyirsə, mədədə həzm getmir və qıcqırma baş verir. Bundan əlavə qaraciyər problemləri olanda da bu kimi xəstəliklər meydana gəlir.

**- Daha çox hansı yaş qrupunda olan insanlar sizə müraciət edirlər?**

– Bu gün gənclərimiz tez hazırlanan "fast food" qidalarına üstünlük verirlər. Ona görə də qidalanma sabit, balanslaşdırılmış deyilsə, karbohidrat



üstünlüklüdürsə, qan dövranı zəifdirsə, bu, mədə-bağırsaq xəstəliklərini yaradan başlıca faktorlardan biri sayılır.

**- Bariatrik əməliyyatlar haqda nə deyə bilərsiniz...**

– Bu əməliyyat son zamanlarda tətbiq edilməyə başlanıb. Biz buna mədənin anatomik quruluşuna müdaxilə deyirik və bu onun dəyişdirilmsi prosesi kimi izah olunur. Çəki itkisi əsasən 2 mexanizmlə – birincisi mədənin həcminin kiçildilməsi ilə mexanik məhdudlaşdırma nəticədə erkən doymanı təmin etmək, ikincisi isə mədənin fundus nahiyyəsində Ghrelin yəni "aclıq hormonu" ifraz olunur, hansıki əməliyyat zamanı həmin hissə kəsilib çıxarıldığı üçün təbii olaraq iştah da azalmış olur və çəki itkisi baş verir. Nəticədə bu əməliyyatlar zamanı çəki itirilir, orqanizmin kütləsi azaldığı üçün mədəaltı vəzə düşən yük azalır, hətta bəzən yüngül dərəcədə şəkər xəstəliklərini aradan qaldırmağa da gətirib çıxara bilir.

**Günel ASLANOVA**

# Tədris Cərrahiyyə klinikasında "ilkin yardım haqqında maarifləndirmə" tədbiri keçirilib

İlkin yardımın düzgün göstərilməməsi ağırlaşma və ölüm hallarının sayını artırır.



Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında baş həkim, dosent Asiman Həsənovun rəhbərliyi ilə ilkin yardım haqqında maarifləndirmə və təcrübələrin artırılması, tibbi təcili yardım şöbəsinin fəaliyyətinin genişləndirilməsi mövzusunda tədbir keçirilib. Baş həkim ilkin həyat dəstəyi, təcili yardım tədbirləri, reanimasyon tədbirlərin aparılması, savadlı tələbə və rezidentlərin, gənc mütəxəssislərin yetişdirilməsi, onların təcrübələrinin artırılması ilə bağlı nəzərdə tutulan gələcək planlar haqqında məlumat verib.

Qeyd edilib ki, bu gün üçün istehsalat, yol-nəqliyyat, məişət travmaları nəticəsində ilkin tibbi yardımın düzgün göstərilməməsi ilə bağlı kifayət qədər ölüm halları baş verir. Bu zaman baş verən qəzaların qarşısını almaq üçün insanların maarifləndirilməsinin vacibliyi vurğulanıb.

Bununla bağlı Tibb Universitetində 5 illik planın nəzərdə tutulduğu bildirilib. Toplantıda çıxış edən həkim Hafiz Həsənov beynəlxalq standartlarda təcili yardım şöbəsinin quruluşu, fəaliyyət planı, protokollar, yanaşmalar haqqında məlumat verib.

Daha sonra təcili yardım şöbəsinin fəaliyyətinin genişlənidirilməsi haqqında mütəxəssislər tərəfindən fikirlər səsləndirilib və hər kəs tərəfindən bu addımlar müsbət qiymətləndirilib. Klinikanın təcili yardım şöbəsinin dünya standartlarına uyğun hazırlandığı vurğulanıb. Bildirilib ki, xəstəxananın girişində əməliyyatxana, reanimasiya, ayıltma palataları, ilkin tibbi yardımın göstərilməsi zalları və diaqnostik müayinələrin aparılması üçün hər cür şərait yaradılıb.

**ATU-nun mətbuat xidməti**

# Mütəxəssislər ürək üçün ən təhlükəli peşələri müəyyən edib

Amerika Kardioloji Assosiasiyasının beynəlxalq konfransında kardioloqlar insanları ürək xəstəliklərinə daha çox mübtəla edən peşələr haqqında danışıblar.




AZƏRTAC "dni24.com" saytına istinadla xəbər verir ki, ürək xəstəlikləri nəticəsində xəstələrdə artıq çəki problemi yarana bilər. Mütəxəssislər 5 mindən çox adamın müxtəlif tibbi göstəricilərinin xüsusi təhlilini aparıblar. Onların yaş həddi 45-dən yuxarı olmayıb və əvvəllər ürək-damar sistemində problemlərdən şikayətlənməyiblər. Əldə edilmiş məlumata istinad edərək mütəxəssislər vahid rəylə bu nəticəyə gəliblər ki, ticarət sahəsində çalışan adamların orqanizmində xolesterinin səviyyəsi yüksəkdir. Rəyi soruşulanların 68 faizindən çoxu müxtəlif zərərli vərdişlərdən əziyyət çəkib.

Kardioloqlar hüquq-mühafizə orqanları və yanğınsöndürmə sistemində işin təhlükəli olduğunu açıqlayıb. Hətta yükvuran fəhlənin işi də, mütəxəssislərin fikrincə, təhlükəli peşədir.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

**KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR**

**Kafedraların dosentləri:**

- Nevrologiya və tibbi genetika kafedrası - 1 yer
- II daxili xəstəliklər kafedrası - 1 yer
- Məhkəmə təbabəti kafedrası - 1 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,25 vahid)

**Kafedraların baş müəllimləri:**

- Xarici dillər kafedrası - 1 yer
- Patoloji anatomiya kafedrası - 1 yer
- HTF-nin Hərbi terapiya kafedrası - 1 yer
- İnsan anatomiyası kafedrası - 1 yer

**Kafedranın müəllimi:**

- Xarici dillər kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,75 vahid)
- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- I daxili xəstəliklər və reanimatologiya kafedrası - 1 yer
- MPF-nin uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer
- Ailə təbabəti kafedrası - 1 yer (0,5 vahid)
- II uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Neonatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Neonatologiya kafedrası - 1 yer (0,25 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,75 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

**ETM kiçik elmi işçi:**

- ETM-nin Farmakologiya şöbəsi - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 15 mart 2016-cı il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir: Bakı şəhəri- Az 1022, Bakıxanov küçəsi 23: Telefon: 597-10-08**

# Yaddaşı yaxşılaşdırmaq üçün məşqlər

Demək olar ki, istənilən yaşda adamlar tez-tez yarızarafat-yarıgerçək yaddaşlarının zəifləməsindən şikayətlənirlər. Bu zarafat olsa, dərd yarıdır, amma bəzən Altsgeymer xəstəliyi və ya qocalıqla bağlı ağıldankəmlilik hallarına da rast gəlmək olar. Hər iki halda insan sadəcə unutqan olmur, onun əvvəlki illərlə bağlı bütün xatirələri yaddaşından silinir.










Təsadüfi deyil ki, bu məsələ müasir təbabəti ciddi narahat edir, axı hazırda 65 yaşdan yuxarı insanların 5 faizi ağıldankəmlikdən əziyyət çəkir. Yaşı 80-i keçmiş adamlar arasında isə bu göstərici daha yüksəkdir. Lakin araşdırmalar göstərir ki, unutqanlıq heç də həmişə ağıldankəmliyin başlaması əlaməti deyil. Çox vaxt buna səbəb yaddaşın məşq etdirilməməsidir. Aşağıdakı tövsiyyələrə əməl etsəniz, "laxlamış" yaddaşınızı asanlıqla bərpa edə bilərsiniz.

Müntəzəm olaraq fiziki təlimlərlə məşğul olun. Tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, müntəzəm fiziki məşğələlər, hətta qoca yaşda da beyin toxumasının itkilərini xeyli azaldır.

Sağlam qidalanma qaydalarına əməl edin. İlk növbədə qidanın tərkibində şəkər və heyvan mənşəli piylər azaldılmalı, antioksidantlarla zəngin olan qara qarağat, ispanaq və çuğundur kimi meyvə və tərəvəzlər üstünlük təşkil etməlidir. Tünd yaşıl yarpaqlı tərəvəzlər maqneziumla zəngin olur və yaddaşı bərpa etməyə kömək edir.

Yeni bacarıq və vərdişlər mənimsəməyə çalışın. Daim əvvəllər məşğul olmadığınız təzə bir şey, məsələn, fortepiano çalmaq və ya xarici dil öyrənin. Bu beynin işini stimullaşdırır və sabitləşdirir.

Yuxunuza fikir verin. Alimlər belə hesab edirlər ki, uzunömürlü insanların çoxu sutkada 6-9 saat yatır. Hədsiz az yatmaq diqqətin cəmləşməsinə ziyandır. Lakin həddən çox yatmaq da zərərlidir.

Yaddaşınızı müntəzəm məşq etdirin. Oxuduğunuz kitabda və ya şahid olduğunuz hadisədə ən mühim məqamları qeyd edin və onları yadda saxlamağa çalışın. İnsanlarla daha çox ünsiyyət qurmağa çalışın. Söhbətlər, xüsusən də müsbət emosiya doğuran söhbətlər beyni lazımı formada saxlamağa kömək edir.

Vaxtınızı və işinizi təşkil edin. Hər bir mühüm xırda şeyin (açar, eynək və s.) yerini tapın. Görmək istədiyiniz işlərin siyahısını tərtib edin.

Televizordan uzaq olun, mütəxəssislər belə hesab edirlər ki, televiziya verilişlərinə həddən artıq aludə olmaq əsəb sistemini zəiflədir.

Mühüm məlumatları qısaca qeyd edin. Bu, qısamüddətli yaddaşın uzunmüddətli yaddaşa keçməsinə kömək edir.

"Başsındıran məsələlər" həll edin. Krossvordlar, kart oyunu və stolüstü oyunlar yaddaşı yaxşılaşdırır.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin IV kurs, 106[a] qrup tələbəsi Qurbanova Zeynəb Firqət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Axundova Maya Rövşən qızına 2009-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hacıkərimova Hənifə Şirin qızına 1998-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

İsmayılova Flora Qadir qızına 2008- ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən funksional diaqnostika ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Sağlam bədən uzunömürlülüyün rəhnidir

İsveç və Britaniya alimləri müəyyən ediblər ki, öz sağlamlığına əmin adamlar uzunömürlü olurlar. AZƏRTAC "medvesti.com" saytına istinadla xəbər verir ki, alimlər 6 min adamın iştirak etdiyi tədqiqat çərçivəsində bu qənaətə gəliblər.



İyirmi doqquz il ərzində könüllülərin sağlamlıq durumu öyrənilib. Bunun üçün ürək fəaliyyətindən tutmuş mücərrəd təfəkkür və vizual yaddaşa qədər 195 əlamət əsas götürülüb. Könüllərə bir çox əlamətləri müstəqil müəyyən etmək təklif olunub.

Məlum olub ki, xoş ovqat insanların ömür müddətini bir qədər artırır. Mütəxəssislər hesab edirlər ki, xəstəliklərdən şikayət etmək mənasızdır. Ağlayıb-sızlamaqdansa, həkimə müraciət etmək və ya həyat tərzini dəyişmək lazımdır.

## Şəkər dərinin vaxtsız qocalmasına səbəb ola bilər

Leyden Universitetinin Tibb Mərkəzinin (Niderland) mütəxəssisləri əmindirlər ki, yediyimiz ərzaq və dərimizin zahiri görünüşü arasında güclü əlaqə var.



Holland alimləri qanda sirkulyasiya edən şəkərin miqdarının insanın zahiri görünüşünə necə təsir etdiyini ilk dəfə araşdırıblar. Nəticələr göstərib ki, insan nə qədər çox şəkər yeyirsə, bir o qədər yaşlı görünür. Ekspertin sözlərinə görə, rasionda karbohidratların çox olması nəticəsində şəkər molekulları dərinin elastikliyinə cavabdeh olan hollagen zülalı molekulları ilə əlaqəyə girir. Məhz buna görə tədqiqatçılar konfet, südlü şokolad, şirniyyat, habelə ağ düyü və un məmulatını rasiondan çıxarmağı məsləhət görürlər, çünki bu ərzaqlar dərinin xarici görünüşünə və cavanlığına mənfi təsir göstərə bilər.

Mütəxəssislər dərinin gözəl və cavan qalması üçün daha çox meyvə, tərəvəz, balıq və lazımlı vitamin, mikroelementlər və sellülozla zəngin olan faydalı yağlar yeməyi məsləhət görürlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 298